*"O, təbiəti etibarilə son dərəcə təvazökar bir insan idi. Hətta Lenin adına sarayda (indiki Heydər Əliyev sarayı) keçirilən hər hansı rəsmi tədbirlərə də demək olar, salon boş olanda gələr və hamıdan əvvəl yerində əyləşərdi, yaxud salon dolu olanda biz yuxarı qalxar və oradan öz yerimizə gələrdik. Çox vaxt qəsdən ləngiyən və hamının onlara baxması üçün aşağı cərgələrdən yuxarı cərgəyə qalxan nazir xanımları kimi yox. Anam kiminsə diqqətini cəlb etməyi xoşlamırdı. O, həmişə mühafizəçilərdən xahiş edirdi ki, televiziya operatorlarını xəbərdar edin ki, bizi çəkməsinlər...". Bəli, təvazökarlığın, sadəliyin əsl nümunəsidir bu. Sevil xanımın böyük nostalji, kədər, qüssə ilə söylədiyi bu ifadələr doğma, əziz insan, sadəlik mücəssəməsi olan Zərifə xanım haqqında deyilənlərin cüzi bir hissəsidir. İllər öncə verdiyi müsahibələrinin birində Sevil xanım həm də bu iki insan: Heydər Əliyevlə Zərifə xanım arasındakı müqəddəs ailə münasibətlərindən də danışmışdı. Sevil xanım deyirdi: "Atam bütün tədbirlərə anamla birlikdə gedirdi. Bunun da səbəbi o idi ki, atam ona çox bağlı idi. Atam onunla nəfəs alırdı. O, işlə əlaqədar Moskvaya - plenumlara, müşavirələrə, sessiyalara gedəndə anamı da özü ilə aparırdı, anam da bizi. Anam da uşaqlarsız dözə bilmirdi və beləcə, biz hər yerə dördlükdə gedərdik...".*

# O, bütün ömrü boyu işığını itirmiş gözlərə nur payladı...

O, dünyaya gəlişi ilə ətrafı, onu əhatə edənləri qəlbinin hərarəti ilə isidən, sevgi paylayan insanlardan idi. İnsanlara sevgisi hər kəsdə işlədiyi sahədə yüksəklikləri fəth etmək istəyi yaradır, yaradıcılığa ruhlandırırdı. Yenilikçi alim, elmlər doktoru, akademik, sovet oftalmologiyasının ən yüksək Averbax mükafatına layiq görülmüş Zərifə Əliyeva Azərbaycan səhiyyəsində silinməz bir iz qoydu. O, milli oftalmologiyamızı respublikamızın hüdudlarından kənara çıxarmağa nail oldu, onu İttifaq, hətta beynəlxalq miqyasda da tanıtdı. Onun xeyirxahlığı, ciddiliyi, səmimiyyəti, insanlara sevgisi, dar, çətin gündə onların köməyinə gəlmək bacarığı bu qadını qəlblərdə ucaltmış, heykəlləşdirmişdi.

Əziz Əliyevin ailəsində olan hər kəs bu ocağı məmnuniyyət hissi ilə tərk edərdi. Əlbəttə ki, bu da ailənin başçısı Əziz Əliyevin qonaqpərvərliyindən, mehribanlığından, səmimiyyətindən, sadəliyindən irəli gəlirdi. Xeyirxahlıq isə onun həyat yoldaşı Leyla xanımdan keçmişdi uşaqlara. Zərifə xanımın həkimlik sənətini seçməsində də atasının təsiri vardı, çünki Zərifə onun şəxsiyyətinə böyük hörmət edir, xalqına təmənnasız xidmət etmək keyfiyyətini yüksək dəyərləndirirdi. Bəlkə elə ona görə Zərifə xanım özü də sadəlik, xeyirxahlıq mücəssəməsi olmuşdu. Onu tanıyanların söylədikləri isə bu insanın bitkin bir obrazını yaradır.

*Akademik Mirməmməd Cavadzadə:* "Mənə həyatda akademik Zərifə Əliyevanın həyatı və elmi fəaliyyəti haqqında çıxış hazırlamaq dəfələrlə nəsib olub və hər dəfə bunu böyük məmnuniyyətlə etmişəm. Əsl vətənpərvər, yüksək dəyərlərə malik bu insan haqqında danışmaq xoşdur.

O, hansı işdən yapışırdısa, onu ən yüksək səviyyədə edirdi. Dünya təcrübəsində ilk dəfə olaraq Bakı kondisionerləri zavodunun bazasında elmi-tədqiqat laboratoriyası yaratmışdı. O, bu laboratoriyada Azərbaycanın sənaye müəssisələrində çalışan işçilər arasında göz xəstəliklərinin vəziyyətini elmi cəhətdən araşdırmaqla məşğul idi. Onun doktorluq işinin mövzusunu da elə bu təşkil edirdi. Zərifə xanım doktorluq işini Moskvada Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Həmin müdafiədə mən də vardım. Zərifə xanım bu müdafiədə yüksək erudisiya və elmi mükəmməllik nümayiş etdirmişdi. O zaman görkəmli oftalmoloqlardan biri A.Nesterov demişdi: "Biz həqiqətən qiymətli, nümunəvi əmək gördük!" Müdafiə şurasının sədri isə çıxışını belə tamamlamışdı: "Elmlər doktorunu bu parlaq müdafiəsi münasibətilə təbrik edirəm!".

*Elmlər doktoru, professor Çingiz Cərullazadə:* "Zərifə Əliyevanın tələbələri, davamçıları çoxdur. Bu, təkcə Həkimləri Təkmilləşdirmə İnstitutunda onun mühazirəsini dinləyənlər deyil. O kəslərdir ki, Zərifə xanım qayğılarına qalıb, himayədarlıq edib, məsləhətlər verib... Fəxr edirəm ki, onun tələbəsi olmuşam... Yaxşı xatirimdədir, Azərbaycan Tibb İnstitutunu bitirib, özümdə cəsarət tapıb oftalmologiya üzrə ixtisaslaşmaqda mənə kömək etməsini istəmişdim. O, mənim bu qərarıma diqqətlə yanaşmış, bəzi dərslik, monoqrafiyalar verib hazırlaşmaq üçün müəyyən müddət qoymuş, bir qədər keçəndən sonra isə müsahibəyə çağırmışdı. Bu elə dövlət imtahanına bərabər bir şey idi!.. Zərifə xanım məni oftalmologiyanın ayrı-ayrı sahələri üzrə demək olar ki, suallarla "ora-bura qovurdu". Nəticə yaxşı oldu, onun məsləhəti ilə Göz Xəstəlikləri İnstitutunda işə düzəldim. Onun rəhbərliyi ilə oftalmologiya sahəsində yüksək intellektli mütəxəssislər qrupu yaranmışdı. Onlara aspiranturaya qəbul olmağa, ən nümunəvi elmi-tədqiqat institutlarında staj keçməyə kömək edirdi ki, bu da milli oftalmologiyamızın inkişafına, tanınmasına zəmin yaradırdı.

Zərifə xanımı ən çox fərqləndirən onun sözün həqiqi mənasında hərtərəfli biliyə sahib olması idi. O, təkcə tibblə deyil, musiqi, rəssamlıq, poeziya ilə də maraqlanırdı. İşi nə qədər çox olsa da, baxış tamaşasını, möhtəşəm bir konserti də ötürməzdi".

Zərifə xanım aramızdan getsə də, onun işi, əməli tələbələrinin, yetirmələrinin fəaliyyətində yaşayır, davam edir.

Əliyevlər ailəsində musiqi həmişə səslənərdi. Bu ailənin, xüsusən də Zərifə xanımın musiqiyə münasibəti barədə danışan *SSRİ Bəstəkarlar İttifaqının sədri olmuş bəstəkar Tixon Xrennikovun* dediklərindən: "Mən çox vəzifəlilərin evində olmuş, onların həyat yoldaşları ilə ünsiyyət qurmuşam. Zərifə xanım təkcə respublikanın birinci şəxsinin həyat yoldaşı deyildi, özü şəxsiyyət, cazibədar qadın, orijinal təfəkkürə malik, fundamental erudisiyası ilə fərqlənən nadir insan idi. Məni ən çox riqqətə gətirən o idi ki, Zərifə xanım peşəkar olmadığı halda royalda çox mükəmməl ifa edir, ayrı-ayrı müəlliflərin əsərlərinə xüsusi ruh, stil gətirirdi".

"Zərifəgilə tez-tez, xüsusən də bayramlarda yığışardıq". - *Zərifə xanımın rəfiqələrindən biri və həmkarı Dilarə Axundova* sözünə davam edərək deyir: "O, həm də böyük, kiçik məclislərin gözəl təşkilatçısı idi. Oftalmologiya İnstitutunun bütün işçiləri ad günlərimizi, dövlət bayramlarını, övladlarımızın dünyaya gəlişini birlikdə qeyd edirdik. Bu, Zərifənin gəncliyində formalaşmış xüsusiyyətlərindən biri idi, ayrı-ayrı adamları bir yerə toplamaq, yaxınlaşdırmaq və sonra da onları böyük bir xeyirxah iş ətrafında birləşdirmək. Bu da bir istedad idi.

Bütün bununla yanaşı, o, həm də gözəl həyat yoldaşı, ana, doğmalarının qayğıları ilə yaşayan insan idi. Ərinə hörmət edir, Sevilin, İlhamın üstündə əsirdi. Əlbəttə, Sevil həmişə onun yanında olur, anasının çıxışlarını, təbriklərini, royalda ifasını dinləyər, yaddaşına həkk edərdi. Elə ona görə də Zərifə xanım aramızı tərk edəndə də, peşəkar bəstəkar olmadığı halda Sevil gözəl musiqi, mahnı-rekviyem, ana itkisinin acısı üzərində bir poema ərsəyə gətirmişdi. Onu ilk dəfə eşidəndə dinləyənlərin heç biri göz yaşlarını saxlaya bilməmişdi. Biz isə onu həmişə şən, gözəl çöhrəsinə yaraşıq verən şux gülüşləri ilə yaddaşımıza həkk etmişik".

*Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Qəmər Almaszadə:* "Zərifə xanım gözəl həkim, bənzərsiz şəxsiyyət idi. Ancaq mən əminəm ki, onun şəxsində Azərbaycan mədəniyyəti, incəsənəti daha bir mədəniyyət xadimini qazanmış olardı. O, oxuyur, rəqs edir, royalda ifa edir və hamısını mükəmməl səviyyədə yerinə yetirirdi. Mən bütün bunları onun uşaqlığında, hələ qonşu olarkən görmüşdüm. Sonralar Dağıstanın rəhbəri kimi Əziz Əliyevin dəvəti ilə Azərbaycanın bir qrup rəqqası Mahaçqalada olanda bu uzunhörüklü qızı orada görəndə ona daha çox vurulmuşdum. Konsertlərimizə gəlir, rəqslərə baxır, gözləri sevincdən alışıb yanırdı. Mən onu "Günəş-qız" adlandırırdım. Həm də ona görə ki, üzündə qeyri-adi işıq, hərarət, doğma Azərbaycanından gəlmiş bizlərə xüsusi minnətdarlıq hissi vardı bu yeniyetmə qızın. Biz sonralar da onunla yaxın olduq, bu münasibət respublika rəhbərinin həyat yoldaşı olanda da davam etdi, çünki Zərifə heç dəyişməmişdi...".

Bəli, Zərifə xanımı nə vəzifə, nə şöhrət, ölkə rəhbərinin həyat yoldaşı olmaq və s. titulların heç biri dəyişmədi. Onu bu gün də elə sağlığındakı kimi hamı hörmətlə, sevgi ilə xatırlayır, çünki onu tanıyanların qəlbində dərin bir iz buraxaraq kübarlığı, ziyalılığı, alimliyi, insanpərvərliyi ilə ucalardan ucalarda dayana bildi, Zərifə xanım.

O, həqiqətən günəş idi, çünki gözlərə nur verməklə elə günəşi qoruyurdu. Bütün ömrünü insanlara işıq bağışlamağa həsr edən Zərifə xanımın ömrünün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət idi. İşığını itirmiş gözlərə nur çiləmək istəyi onun parlaq obrazını ilahi bir nəcibliyə qovuşdururdu. O, cismən bizlərdən ayrılsa da, qoyub getdiyi yadigar işıq öz aydınlığını bir damla belə azaltmayıb. Əksinə, bu işıq onun yenidən günəşi görmək imkanını qaytardığı adamlarda, onunla bağlı kövrək xatirələrdə əbədiləşdi...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 28 aprel.- S.4.